# Bir gözümüz ağlayanda...

*El arasında belə bir atalar məsəli var: «Bir gözümüz ağlayanda, bir gözümüz gülüb». Çoxlarına adi gələn el sözü zamanın süzgəcindən keçib. Bizlərə fəlakət, kədər gətirən rəqəmlər, çox keçmədən bizə xoşbəxtlik və sevinc gətiriblər.*

1945-ci il 9 may və 1992-ci ilin 8 may günü. 15 ildir vətənimizin dilbər guşəsi olan, Azərbaycanın konservatoriyası adlanan gözəl Şuşamız qansız erməni daşnaqlarının tapdağı altında inləyir. Hər il olduğu kimi bu il də Şuşanın işğalı gününü bütün Azərbaycan xalqı kimi Xızı rayon ictimaiyyəti də hüznlə qarşıladı. C.Cabbarlı adına rayon mədəniyyət evində geniş rayon tədbiri keçirildi. Biz mədəniyyət işçiləri olaraq məktəblilərə və gənclərə torpağını, vətənini sevməyi aşılayırıq. Biz hər birimiz inanırıq ki, haqq öz yerini tutacaq, günahsız axıdılan qanlar yerdə qalmayacaq! Axı bu torpaq hər zaman igid oğullarına arxalanıb. Xalqımızı kədərləndirən 8 may gününü, elimizi fərəhləndirən 9 may «Qələbə» günü əvəz edir. Biz necə sevinməyə bilərik ki, ata və babalarımız 5 il davam edən ağır bir müharibədə öz qanları, canları bahasına Qələbə əldə ediblər. 09.05.2007-ci il tarixində Xızı Rayon İHB-sı Vaqif Abdullayev rayonda olan müharibə veteranları və onların ailələri ilə görüşdü. Çay süfrəsi arxasında veteranlar keçdikləri döyüş yolundan söhbət açdılar. Rayonun qəsəbə və kəndlərində qələbənin əldə edilməsində canlarından keçən vətən oğlullarının şərəfinə ucaldılmış abidələr önündə kütləvi tədbirlər həyata keçirildi. Geniş rayon tədbiri isə rayonun Tıxlı kəndində yerləşən abidənin önündə başa çatdı. Tədbirdə məktəblilər veteranların keçdikləri döyüş yolunun necə şərəfli olduğunu anlatdılar. Onlar veteranları təbrik etdilər, şerlər söylədilər və hərbi marşlar oxudular. Rayon İHB-sı tərəfindən veteranlara pul mükafatı və hədiyyələr təqdim olundu. May ayı biz mədəniyyət işçiləri üçün gərgin zəhmət tələb edən aylardan biridir: Şuşanın işğalı, Qələbə günü, Respublika günü, Beynəlxalq ailə günü, muzeylər günü və müsabiqələrə start götürən işgüzar bir aydır. Bu ay yaddaşlara həkk olunan bir tarix də var. «10 may» günü. Bəli, tarix heç kimin xidmətlərini unutmadığı kimi H.Əliyevin də Azərbaycan dövlətçiliyi uğrunda əvəzsiz mübarizəsini unutmayacaq. Böyük xalqa layiqli oğul olmaq üçün qayğılarını, ağrı-acılarını özününkü bilməlisən ki, xalq məhəbbətinin zirvəsinə yüksəlib onun öndəri, rəhbəri ola biləsən. Xalqının və millətinin xilaskarı, Azərbaycanın memarı adını almış Heydər Əliyev şübhəsiz bütün mənalı ömrünü bu amallarla yaşayıb.



10 may günü ilə bağlı Xızı Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən tədbirlər planı işlənib hazırlanmışdır. Şöbənin nəzdində fəaliyyət göstərən müəssisələrdə silsilə tədbirlər həyata keçirilmiş, MKS-də və filial kitabxanalarda ulu öndərin həyat və yaradıcılığından bəhs edən foto stendlər düzəldilmiş, kitablardan ibarət sərgi təşkil olunmuşdur. Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü ilə əlaqədar geniş rayon tədbiri ulu öndərin adını daşıyan parkda ucaldılmış abidəsinin ziyarəti ilə başladı. Bütün rayon ictimaiyyəti bu kütləvi tədbirdə ürəkdən iştirak etdilər. Xızı Rayon İcra Hakimiyyətinin başçısının çıxışından sonra rayonun «Xızı dağları» ansamblının müşayəti və mədəniyyət işçilərindən X.İsmayılovanın, B.Nuriyevanın, E.Məmmədovanın, R.Quliyevin, qonaqlardan Ə.Xankişiyevin, F.Ağayevin və başqalarının ifasında oxunulan şən mahnı və şerlər tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Biz mədəniyyət kollektivi olaraq gərgin zəhmət tələb edən tədbirlərdən çəkinmirik. Xızı rayon İHB-nın göstərişi və Mədəniyyət və Turizm Şöbəsinin müdiri S.Talıbovun rəhbərliyi ilə belə tədbirlərin öhdəsindən asanlıqla gəlirik. Tədbirlərin hazırlanmasına şöbənin nəzdində fəaliyyət göstərən 7 illik UMM-nin direktoru Z.Şıxəliyevin zəhməti danılmazdır. Qarşıda 28 may «Respublika günü», 1 iyun «Uşaqların beynəlxalq müdafiəsi günü», 5 iyun nakam şairimiz M.Müşfiqin xatirə gününə hazırlıq işləri aparırıq. Çalışırıq ki, bu tədbirləri də uğurla həyata keçirək.

Azərbaycan Respublikası Prezidentinin mədəniyyət sahəsinə diqqət və qayğısı bizləri daha da ruhlandırır. Həmyerlimiz nakam şair M.Müşfiqin 2008-ci ildə 100 illik yubileyinin keçirilməsi haqqında 16 aprel 2007-ci il tarixdə imzaladığı sərəncamı sevinclə qarşılayaraq möhtərəm Prezidentimiz, qayğıkeş rəhbərə öz dərin minnətdarlığımızı bildiririk. Qarşıdan gələn Prezident seçkilərində ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Prezidentimiz İ.Əliyev cənablarının ətrafında sıx birləşəcək və onu dəstəkləyəcəyik.

**Həcər RƏSULOVA,**
**Xızı Rayon Mədəniyyət və Turizm Şöbəsinin inspektoru**

